# Nikol Paşinyanın açıqladığı sənədlər bəlli həqiqətlərə yenidən işıq saldı



Ermənistan hökumətinin Azərbaycanın müəllifi olduğu sülh təklifini qəbul etməkdən başqa yolu yoxdur. Bu reallığı qəbul etmək istəməyən bəzi revanşist qüvvələr separatçı çağırışları davam etdirirlər. Onlar 2026-cı il seçkilərində yenidən siyasi meydana atılmağa can atırlar. Bu dəfə də Qarabağ üzərindən siyasi oyunlar qurmaq cəhdləri diqqətdən qaçmır.

Bu barədə qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Nigar Məmmədova bildirib. Onun sözlərinə görə, Nikol Paşinyanı "təslimçi sülh"də ittiham edən müharibə caniləri Robert Köçəryan və Serj Sarkisyan, eləcə də qondarma demokrat Levon Ter-Petrosyan bu günlərdə növbəti dəfə ifşa olundular: "Nikol Paşinyan əvvəlcədən də söylədiyi kimi, "Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin sənədləri"ni ictimailəşdirib. Təbii ki, bu sənədlərlə bağlı rəsmi Bakının heç bir narahatlığı yoxdur. Azərbaycan Prezidenti bu illər ərzində danışıqların gedişi ilə bağlı hər zaman ictimaiyyəti məlumatlandırırdı. Sözügedən 13 sənəd 1992-2020-ci illərdə həmsədr ölkələrin iştirakı ilə aparılmış danışıqları əhatə edir. Burada da beynəlxalq vasitəçilərin qərəzi, ikili standartlara söykənən mövqeyi açıq şəkildə əks olunub. Bir daha təsdiq olunur ki, məhz beynəlxalq birliyin məsələyə ədalətli yanaşmaması səbəbindən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri kağız üzərində qaldı. Təcavüzkar Ermənistan dialoq masasında özünü arxayın hiss edərək, işğalçı mövqeyindən əl çəkmədi. Vasitəçilər isə işğalçı ilə işğala məruz qalan arasında fərq qoymadan müxtəlif yarımçıq həll paketləri irəli sürürdülər".

Nigar Məmmədova qeyd edib ki, bu sənədlərin açıqlanması ilə bir daha təsdiqləndi ki, Qarabağda yaradılan separatçı rejim Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində danışıqlardan kənarda saxlanılıb, Ermənistan və Azərbaycan münaqişə tərəfləri kimi qəbul edilib. "Prezident İlham Əliyevin iştirak etdiyi bütün danışıqlarda da Azərbaycanın heç bir halda Qarabağdan imtina etməyəcəyinə dair prinsipiallıq nümayiş olunub. Həmsədrlərin Ermənistanın maraqlarına uyğun olan "kompromis" həll variantları isə qəbul edilməyib. Azərbaycan sona qədər danışıqlarda iştirak etsə də, bir gün belə milli maraqlara söykənən mövqeyindən geri çəkilməyib. Rəsmi Bakı müzakirələrdə iştirakdan imtina etməməklə həm də beynəlxalq təzyiqlərin qarşısını alıb. Eyni zamanda bu müddət ərzində beynəlxalq qurumlarda Azərbaycanın əlini gücləndirən qətnamələrin qəbuluna da nail olundu. Bir sözlə, danışıqlar masasında nəticə olmasa belə, ilbəil Azərbaycanın siyasi-hərbi və siyasi mövqeyi gücləndi", - deyə deputat qeyd edib.

N.Paşinyan açıqladığı sənədlərə əsasən, Aprel döyüşlərindən sonra Ermənistanın ozamankı prezidenti Serj Sarkisyanın Rusiya dövlət başçısına məktubunda ölkəsinin Azərbaycanın hərbi gücü qarşısında aciz qaldığına dair etiraf əks olunur. Nigar Məmmədovanın sözlərinə görə, o, açıq şəkildə etiraf edir ki, Azərbaycan heç bir qarşılıqlı güzəştə getmək istəmir: "Üstəlik, bu sənədlərdən bir daha aydın olur ki, Ermənistan tərəfi sülh danışıqlarında ərazi bütövlüyü ilə bağlı heç vaxt konstruktiv mövqe tutmayıb. Bu səbəbdən də 28 il davam edən nəticəsiz danışıqlara son qoyuldu və Azərbaycan öz gücü hesabına ərazi bütövlüyünü, suverenliyini təmin etdi".

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 5 dekabr (№ 257).- S.7.